UOT 94(479.24)

NAZİM MUSTAFA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-0709-5689
nazimmustafa@mail.ru

İRƏVAN ŞƏHƏRİNDƏN AZƏRBAYCANLILARIN 1948-1953-CÜ İLLƏR DEPORTASİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/110/167-175

Bu məqalədə 1948-1953-cü illərdə İrəvan şəhərindən azərbaycanlıların kütləvi deportasiyası araşdırılır. Ermənilər 1905-1906 və 1918-1920-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar və soyqırımları törətmiş, İkinci Dünya müharibəsindən sonra isə mərkəzi Sovet hakimiyyətinin köməyi ilə azərbaycanlılar öz tarixi-etnik torpaqlarından deportasiya edilməsinə nail olmuşlar. Paralel olaraq xaricdən ermənilər köçürülüb gətirilərək deportasiyaya məruz qoyulan azərbaycanlıların evlərində məskunlaşdırlmışlar. Təhlillər göstərir ki, 1948-1953-cü illər deportasiyası nəticəsində İrəvan şəhərinin azərbaycanlı əhalisi yarı azalmışdır. Həmçinin bütövlükdə 1948-1953-cü illərdə 100 minə yaxın azərbaycanlı əhali öz tarixi vətənləri olan Qərbi Azərbaycandan deportasiya edilmişdir.

Açar sözlər: Ermənistan, Qərbi Azərbaycan, azərbaycanlılar, İrəvan, Bakı, Gəncə, deportasiya.

Giriş. İstər Çar Rusiyası dövründə, istərsə də Sovet hakimiyyəti illərində erməni siyasi dairələri tarixi şəraitin verdiyi fürsətdən istifadə edərək öz məkrli niyyətlərini həyata keçirmişlər. Ermənilərin azərbaycanlılara qarşı 1905-1906-cı və 1918-1920-ci illərdə həyata keçirdikləri kütləvi qırğınlar və soyqırımı aksiyaları məhz müəyyən tarixi şəraitin onlara verdiyi fürsətin nəticəsi idi. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası ermənilərin və onların havadarlarının İkinci Dünya müharibəsinin sonunda Sovet İttifaqının üstün mövqeyə çıxması ilə yaranan şəraitdən bəhrələnmək siyasətinin növbəti mərhələsi idi.

Deportasiya və yaxud əhalinin zorakılıqla miqrasiyası sovet hakimiyyəti illərində müxtəlif üsullarla həyata keçirilən siyasi repressiyanın xüsusi forması idi. Etnik təmizləmə məqsədini güdən bu aksiya həm administrativ xarakter daşıdığı üçün, həm də Ermənistanda yaşayan xalqlardan yalnız azərbaycanlılara şamil edildiyi üçün siyasi repressiya kimi xarakterizə edilməlidir. Min illər ərzində müəyyən arealda formalaşmış toplumun gözlənilməz bir qərarla tarixi köklərindən qoparılaraq yurdsuzlaşdırılması isə bu aksiyanın qeyr-insani, anti-humanist xarakterinə dəlalət edirdi.

1944-cü ilin iyununda Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Qriqori Arutinov məşhur sovet tarixçisi akademik Yevgeni Tarleni İrəvana dəvət edərək, onunla "Qərbi Ermənistan"ın (*yəni Türkiyənin Şərqi Anadoludakı ərazisinin bir hissəsinin – N.M.*) Sovet Ermənistanına "qovuşdurulması" aspektlərini müzakirə etmişdi. Nəticədə akademik Tarlenin Sov.İK(b)P MK-ya təqdim etdiyi arayış SSRİ Xalq Komissarları Sovetinin sədri İosif Stalinin yanında müzakirə edilsə, də heç bir qərar qəbul edilməmişdi [20].

Qərbi Azərbaycandan, o cümlədən də İrəvan şəhərindən azərbaycanlıların 1948-1953-cü illər deportasiyasının səbəblərini müəyyən etmək üçün həmin dövrdə gedən proseslərə nəzər salmaq lazımdır. İkinci Dünya müharibəsinin sonuna yaxın SSRİ-nin Türkiyə ilə münasibətləri həddindən artıq kəskinləşmişdi. 1945-ci il martın 19-da SSRİ hökuməti hələ 17 dekabr 1925-ci ildə imzalanan və sonradan müddəti dəfələrlə uzadılan iki ölkə arasında dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada denonsasiya etmişdi. Ləğv edilən həmin müqavilədə bir-birinə hücum etməmək və neytrallığa əməl etmək barədə öhdəliklər var idi. Bu addım ona işarə idi ki, Sovet İttifaqı Türkiyəyə hücuma hazırlaşır. Sadəcə olaraq, Almaniya cəbhəsində müharibənin qurtarmasını gözləmək lazım gəlirdi. SSRİ rəhbərliyi öz hərəkətini onunla izah edirdi ki, 1942-ci ildə almanlar Şimali Qafqaza gəlib çıxanda, Türkiyə öz qoşunlarını Cənubi Qafqaz sərhədlərinə cəmləşdiribmiş və Sovet qoşunlarının həmin cəbhədə məğlub olacağı təqdirdə, guya hücuma keçmək istəyirmiş. Türkiyənin 1944-cü ilin

avqustunda Almaniya ilə əlaqələrini kəsməsini və 1945-ci il fevralın 23-də ona qarşı müharibə elan etməsini SSRİ rəhbərliyi gecikmiş addım kimi qiymətləndirir və Türkiyəni "cəzalandırmaq" istəyirdi [19, c.192-195].

Müharibədən qalib çıxan SSRİ-nin öz sərhədlərini genişləndirmək siyasəti müharibədən sonra formalaşmağa başlayan Stalin-Molotov doktrinasının əsasını təşkil edirdi. 1945-ci il iyunun 7-də SSRİ xalq xarici işlər komissarı V. Molotov Türkiyənin SSRİ-dəki səfiri S. Sarperi dəvət edərək Boğazlara birgə nəzarət, Bosfor və Dardanel rayonunda Sovetlərə hərbi baza verilməsi, Qars və Ərdahanın SSRİ-yə qaytarılması haqqında Sovet hökumətinin tələblərini elan etmişdi. İyunun 18-də V. Molotov S. Sarperlə yenidən görüşərək "tarixi ədalətsizliyin bərpa edilməsi üçün Qars və Ərdahanın qaytarılmasını" ultimativ qaydada yenidən irəli sürmüşdü [16, c.230-240].

Belə bir məqamda ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin sərhədlərini genişləndirmək planları üst-üstə düşürdü. İ.Stalin Rusiya ilə Türkiyənin 1914-cü il sərhədlərini bərpa etmək, yəni Qars və Ərdahan vilayətlərini yenidən Türkiyədən qoparmaq istəyirdi. Lakin Türkiyədən qoparılması nəzərdə tutulan ərazilərin məskunlaşdırılması problemi qarşıya çıxmışdı. Bu problemin xaricdə məskunlaşan Türkiyə əsilli ermənilərin hesabına həll edilməsi nəzərdə tutulurdu. Qarşıdan isə bütün ermənilərin katolikosunu seçmək kampaniyası gəlirdi.

1945-ci il aprelin 3-də bütün ermənilərin katolikosunun seçkiləri ərəfəsində Eçmiədzin kilsəsinin arxiyepiskopu Gevorq VI Çörəkçyan mövcud problemlərin həlli ilə bağlı İ.Stalinə məktubla müraciət etmişdi [21, c.64-66]. İ.Stalin bu məqamdan istifadə edərək, arxiyepiskop Gevorq Çörəkçyanı Moskvaya çağırır.

1945-ci il aprelin 19-da Gevorq Çörəkçyan SSRİ Nazirlər Sovetinin nəzdindəki Dini İşlər Şurasının sədri Polyanskinin müşayiəti ilə Stalinlə görüşür. Stalin əvvəllər Eçmiədzin kilsəsinə məxsus olmuş torpaqların qaytarılması tələbindən başqa, arxiyepiskopun bütün xahişlərinin yerinə yetiriləcəyini bildirir. Çünki həmin torpaqlar artıq kolxozlara məxsus idi və qaytarılması böyük narazılıqlar yarada bilərdi. Görüşün sonunda Stalin deyir: "Tezliklə müharibə qurtaracaq. Bizim hökumət 1920-ci ildə Ermənistanın Türkiyəyə verilmiş qərb quberniyalarını geri qaytarmaq istəyir. Aydındır ki, həmin torpaqlarda ermənilər yaşamalıdırlar. Arzu olunandır ki, onlar Türkiyədən qaçmış və hazırda xaricə səpələnmiş ermənilər olsunlar. Ona görə də təqribən 100 min ermənin immiqrasiyasını təşkil etmək lazımdır. Tezliklə bu barədə hökumətin qərarı olacaq. Siz də öz növbəsində bu işdə bizə kömək etməlisiniz". Bunları eşidən Gevorq sevincini gizlədə bilmir. O, bu məsələnin həllində hər cür köməklik ediləcəyini vəd edir və eyni zamanda bildirir ki, Ermənistanda iqtisadi vəziyyət ağırdır və xaricdən gələcək bu qədər ermənini mənzillə və ərzaqla təmin etmək mümkün olmayacaq. Stalin cavab verir: "Eybi yoxdur, biz hər şeyi edərik, təki repatriantlar sıxıntı çəkməsinlər" [17]. Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana köçürülməsinə ciddi hazırlıq görülür. "Hər şeyi edərik" dedikdə isə Stalin xaricdən köçürülüb gətiriləcək ermənilərin mənzil problemlərinin azərbaycanlıların Ermənistandan deportasiya edilməsi yolu ilə həll edilməsini nəzərdə tuturdu.

Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana, o cümlədən də İrəvan şəhərinə köçürülməsinə, paralel olaraq, azərbaycanlıların deportasiya edilməsinə ciddi hazırlıq görülür. Sovet hökuməti azərbaycanlıların Ermənistandan köçürülməsinin (*əslində, deportasiya edilməsinin – N.M.*) zəruriyyətini Mingəçevir su anbarı tikilib istifadəyə verildikdən sonra Kür-Araz ovalığında yeni suvarılan torpaq sahələrinin yaranacağı və həmin torpaqlarda pambıq yetişdirmək üçün işçi qüvvəsinə ehtiyac olacağı ilə əsaslandırmağa çalışrdı.

İyunun 22-də arxiyepiskop Gevorq Çörəkçyan bütün ermənilərin katolikosu seçilir. Katolikosun seçilməsi münasibətilə müxtəlif ölkələrdən Eçmiədzinə gələn din xadimləri fürsətdən istifadə edərək Sovet hökumətinə müraciət edirlər ki, Qars və Ərdahanın Ermənistana birləşdirilməsi məsələsini həll etsin.

1945-ci il mayın 15-də Ermənistan Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi Q.Arutinov məktubla İ.Stalinə müraciət edərək, xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına "qaytarılması" haqqında qərarın qəbul edilməsini xahiş edir. İyunun 6-da Stalin Kremldə Arutinovu qəbul edir. Arutinov Stalinə Türkiyə ilə 1914-cü ildəki vəziyyətə uyğun sərhədləri bərpa etmək haqqında məktubunu təqdim edir. İ.Stalin xarici işlər naziri Vyaçeslav Molotova tapşırır ki, ona 1914-cü il və 1921-ci il xəritələrini təqdim etsin. Oktyabrın 27-də Arutinov yenidən Stalinin qəbulunda

olarkən Stalin ona Sovet hökumətinin Türkiyəyə qarşı ərazi iddiasının gündəlikdən düşmədiyini bildirir. Arutinov 300 mindən artıq ermənin Sovet Ermənistanına can atdığını, lakin ilk öncə "mövcud ədalətsizliyin" aradan qaldırılmasını – yəni Dağlıq Qarabağ və Naxçıvan məsələsinin həll edilməsini xahiş edir. Arutinov görüşün sonunda Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında növbəti məktubunu Stalinə təqdim edir [20].

SSRİ Xalq Komissarları Soveti 21 noyabr 1945-ci il tarixdə "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul edir. Ermənistan hökuməti yanında "repatriantların" qəbulu və yerləşdirilməsi üzrə xüsusi komitə yaradılır və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərir.

Noyabrın 28-də ÜİK(b)P MK-nın katibi G.Malenkov Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi barədə Arutinovun Stalin qarşısında qaldırdığı vəsatəti Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova göndərir [8, v. 7]. 1945-ci il dekabrın 10-da M.C.Bağırov həmin məktuba cavab olaraq göndərdiyi məktubda bildirir ki, o, Arutinovun təklifi ilə o şərtlə razıdır ki, Şuşa istisna olmaqla, Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Əzizbəyov, Vedi və Qarabağlar rayonları Azərbaycana birləşdirilsin [8, v.8-12]. Bundan sonra həmin məsələ qapadılmış, əvəzində azərbaycanlıların Ermənistandan deportasiyası məsələsi aktuallaşmışdı.

SSRİ Ali Sovetinin 19 oktyabr 1946-cı il tarixli fərmanına əsasən xaricdən Ermənistana "repatriasiya" edilən ermənilərə Sovet İttifaqının ərazisinə daxil olduqları andan etibarən SSRİ vətəndaşı statusu verilməsi qərara alınmışdı. Əslində, xaricdən köçürülüb gətirilən ermənilər "repatriant" adlandırmaq elmi nöqteyi-nəzərdən düzgün deyildi. Çünki köçürülüb gətirilən ermənilər heç vaxt indiki Ermənistan ərazisində yaşamamışdılar. Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni Ermənistana köçürülür. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilərək Ermənistanda yerləşdirilir [18, c.366]. Ermənistan rəhbərliyi 1946-cı ilə nisbətən 1947-ci ildə xaricdən köçürülüb gətirilən ermənilərin sayının azalmasının səbəbini onunla izah edirdi ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ümumiyyətlə, 1946-1949-cu illərdə xarici ölkələrdən Ermənistana 96 min erməni köçürülmüşdü ki, onların da bir hissəsi İrəvanda məskunlaşmışdıı. Onlar əsasən şəhər ətrafındakı Nor-Areş, Zeytun, Nor Kilikiya massivlərində məskunlaşdırılmışdılar [18, c.365].

Tarixçilər SSRİ-nin Türkiyəyə qarşı ərazi iddiasını İkinci Dünya müharibəsindən sonra SSRİ ilə Qərb dövlətləri arasında "soyuq müharibənin" başlanğıc mərhələsi kimi izah edirlər. Sovet hökuməti ilə ABŞ və İngiltərə arasında aparılan uzun sürən diplomatik danışıqlar nəticəsində nəhayət ki, Sovet hökuməti Türkiyəyə hücum etmək niyyətindən əl çəkmişdi [13, s. 595]. Ermənilər Sovet hökumətinin köməyi ilə Qars və Ərdahanı ələ keçirmək fürsətini əldən versələr də, azərbaycanlı əhalinin tarixi-etnik torpaqlarından deportasiya edilməsinə nail oldular.

1947-ci il dekabrın əvvəlində Azərbaycan və Ermənistan K(b)P MK-larının birinci katiblərinin adından İ.Stalinin adına məktub göndərilir. Birgə məktubda Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlının köçürülməsi məsələsini həll etmək xahiş olunurdu. Surəti Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivində saxlanılan həmin məktubun altında imza, imzalanma tarixi və göndərilmə nömrəsi qeyd olunmamışdır [12, s.80].

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Qərarın 1-ci bəndində 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər [10, v. 14-17]."Digər azərbaycanlı əhali" kateqoriyasına açıqlıq gətirilməsə də, aydın olurdu ki, bu kateqoriya altında Ermənistanın şəhərlərində yaşayan fəhlələr və kolxozçu olmayan azərbaycanlıların köçürülməsi nəzərdə tutulurdu.

2 fevral 1948-ci ildə Azərbaycan SSR Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsiinə hazırlıq tədbirləri haqqında" məxfi qərar qəbul edir, 1948-ci ildə köçürülənlərin Azərbaycan SSR-in kolxozlarına bölüşdürülməsi planını təsdiq edir [1, v.55-59]. Həmin plana görə, İrəvan şəhərindən yaz mövsümündə 60 ailənin (230 nəfər) köçürülməsi nəzərdə tutulurdu.

10 mart 1948-ci il tarixdə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" ikinci qərar qəbul etmişdir. 14 maddədən ibarət olan bu qərarda köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan Nazirlər Sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu [10, v. 21-25].

Azərbaycanda köçürmə işlərinə bilavasitə Nazirlər Sovetinin milliyyətcə erməni şöbə müdirləri Nerses Brutens (*N.Brutens uzun müddət Sov.İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini olmuş Karen Brutensin atasıdır – N.M.*) və Ruben Sevumyan *(R.Sevumyan təqribən 25 il Nazirlər Sovetində kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində işləmişdir – N.M.)* rəhbərlik etmişdilər.

Ermənistan SSR- dən Gəncə şəhərinə və rayonlarına icazəsiz köçmüş ailələrin vəziyyəti və Gəncə zonasının rayonlarında onların yerləşdirilməsi və qeydiyyatlarının aparılması üçün işlənmiş tədbirlər planı haqqında Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə şöbəsinin müdiri N.Brutensin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ. Quliyevə 15 mart 1948-ci il tarixli məxfi məlumatında qeyd edilirdi ki, 1947-ci ilin sonu və 1948-ci ilin yanvar-fevral aylarında Kirovabad (Gəncə) şəhərinin Yeni İrəvan qəsəbəsində təqribən 50 ailə İrəvan şəhərindən gələrək məskunlaçmışlar. İrəvan şəhərindən gələnlərin əksəriyyətinin Ermənistan Ticarət və İctimai İaşə Nazirliyi sisteminin işçiləri olduqları və əsasən işsiz olduqları həmin məlumatda qeyd edilir [3, v. 8-14].

18 mart 1948-ci il tarixində Azərbaycan KP (b) MK Bürosunun iclasında Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürmə İdarəsinin rəisi vəzifəsinə Məmməd Cəfərov, Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də müvəkkili vəzifəsinə isə Mürsəl Məmmədov təsdiq edilmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də 5 ştat vahidi ilə Nümayəndəliyi yaradılmışdı. Nümayəndəlik İrəvan şəhərindəki Kamo küçəsi, 2 ünvanında yerləşirdi.

Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-dəki nümayəndəsi M.Məmmədovun Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə və AK(b)P MK-in katibi M.C.Bağırova göndərilən 12 aprel 1948-ci il tarixli məlumatında qeyd edilirdi ki, 1948-ci ildə Ermənistanın əsasən azərbaycanlıarla ermənilərin qrışıq yaşadıqları 53 yaşayış məntəqəsindən 2378 ailənin (11244 nəfər) köçürülməsi nəzərdə tutulur. Həmçinin qeyd edilirdi ki, İrəvan şəhəriniun azərbaycanlıları xahiş edirlər ki, onları Azərbaycan SSR-in iri şəhərlərinə - Bakıya və Gəncəyə köçürsünlər və mənzillərinin Azərbaycanın şəhərlərindəki mənzillərlə dəyişdirilməsi üçün mətbuatda elan verilməsinə icazə verilsin. İrəvanlı azərbaycanlıların arasında çoxlu sayda bağçılıq və tərəvəzçiliklə məşğul olduqları üçün onlar Abşeron rayonunda məskunlaşdırılmalarını istəyirdilər ki, Bakı şəhərini müəyyən qədər tərəvəzlə və göygöyərti ilə təmin edə bilsinlər [12., s.133-135]. Bununla əlaqədar İrəvan şəhərindən köçürülən kolxozçuların Abşeron kolxozlarında yerləşdiriləcəkləri evlərin cari vəziyyəti və onların əsaslı surətdə yenidən qurulması məqsədilə yaradılmış komissiyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin adına göndərdiyi arayışda qeyd edilirdi ku, Abşeron rayonunun Şüvəlan, Qala, Mastağa, Binə, Zirə, Mərdəkan, Türkan, Keşlə, Buzovna və Nardaran qəsəbə və kəndlərində kapital təmirdən sonra 295 ailənin yerləşdirilməsi mümkündür [2, v. 56-57].

Bakı şəhər Sovetinin əməkdaşı Allahverdiyevin, Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin əməkdaşı N.Brutensin, İrəvan şəhərinin təmsilçiləri Şirinov və İsmayılovun imzaları ilə "İrəvan şəhərindən köçürülən kolxozçuların Abşeron kolxozlarında yerləşdiriləcəkləri evlərin cari vəziyyəti və onların əsaslı surətdə yenidən qurulması haqqında komissiyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin adına hazırlanan arayış"da qeyd edilirdi ki, 1948-ci il aprelin 17-18-də İrəvan şəhərindən köçürülənlərin təmsliçiləri Şirinov və İsmayılovun iştirakları ilə Maştağa və Əzizbəyov rayonlarını gəzmiş, boş evlərdə məskunlaşma üçün onların yararlılıq vəziyyətini yoxlamışlar. Müəyyən edilmişdir ki, kapital bərpa-təmir işlərindən sonra 295 ailəni həmin rayonların ərazisində məskunlaşdırmaq olar. Şirinov və İsmayılov bildirmişlər ki, Türkan, Zirə, Nardaran və Şüvəlanın təbii şəraiti

köçürülmə üçün münasib deyil və xahiş etmişlər ki, köçürülən əsas kütlə Maştağa, Buzovna, Mərdəkan və Şüvəlanda yerləşdirilsinlər, hansı ki həmin kəndlərdə zəruri torpaq sahələri var ki, orada yeni evlər tikmək mümkündür [5, v. 273-274].

13 aprel 1948-ci ildə Azərbaycan K(b)P MK-nın Bürosu "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi təbliğat tədbirləri haqqında" qərar qəbul etmişdir. Həmin qərarın preambula hissəsində SSRİ Nazirlər Sovetinin məlum 23 dekabr 1947-ci il tarixli qərarı Stalinin Azərbaycan SSR-ə və Azərbaycan xalqına göstərdiyi qayğının təzahürü kimi qiymətləndirilirdi. Ermənistanda yaşayan azərbaycanlı əhalini köçməyə təşviq etmək üçün "Sovet Ermənistanı" qəzetində Sovet Azərbaycanının sosializm quruculuğundakı nailiyyətləri haqqında dərc edilməsi üçün məqalələr hazırlamaq, Mingəçevir sisteminin inşası nəticəsində Kür-Araz ovalığında yeni yaranacaq suvarılan ərazilərin perspektivi haqqında kütləvi tirajla broşürlərin çap edilməsi tapşırılırdı. Həmçinin mədəni-maarif müəssisələrinin rəhbərlərinə tapşırılırdı ki, Ermənistanda yaşayan azərbaycanlı əhali arasında təbliğat aparmaq üçün mühazirəçilər, yazıçılar, şairlər, artistləri səfərbər etsinlər [11, v.19-20].

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin ilin yaz mövsümündə Ermənistan SSR-in kənd rayonlarının kolxozçuları ilə bərabər, İrəvan şəhərindən 105 azərbaycanlı ailəsinin (400 nəfər) Bakı ərazisinə köçürülməsi nəzərdə tutulurdu [4, v. 241].

Rayon və qəsəbələr	*Ailə*	*Nəfər*	*Yerlədirilməəsi nəzərdə tutulan rayon*	*Yerlədirilməəsi nəzərdə tutulan kənd, qəsəbə*
Malatya qəs.	21	70	Əzizbəyov	Mərdəkan
Qoxb qəsəbəsi	19	110	Əzizbəyov	Mərdəkan
Stalin rayonu	40	154	Maştağa	Maştağa
Spandaryan rayonu	25	76	Əzizbəyov	Şüvəlan

Lakin İrəvan şəhərindən köçürülərək Bakı ətrafında yerləşdirilməsi nəzərdə tutulan evlər yaşamaq üçün yarasız vəziyyətdə olan idarə-müəssisələrin uçuq-sökük inzibati tikililərdən ibarət idi. İrəvan şəhərində yüz illər boyu yaşayan, özlərinə imarətlər inşa edən azərbaycanlı əhalinin Bakının ətrafında yararsız vəziyyətdə olan tikililərdə yerləşdirilməsi sözün həqiqi mənasında cinayət idi. Bu cinayətə həmin dövrün Ermənistan və Azərbaycan rəhbərləri birlikdə imza atırdılar.

"Pedoqoji institutun Azərbaycan bölməsinin və Azərbaycan pedaqoji texnikumunun Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti l iyul 1948-ci ildə qərar qəbul etmişdir. Həmin qərarla Azərbaycan SSR Maarif Nazirliyinə tapşırılmışdır ki, İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı sektorunun ədəbiyyat, coğrafiya və fizika-riyaziyyat fakültələrində təhsil alan 149 tələbə Azərbaycan Pedaqoji İnstitutunun müvafiq fakültələrinə köçürülsünlər. İrəvan Qiyabi Pedaqoji İnstitutunun azərbaycanlı sektorunun ədəbiyyat, tarix və fizika-riyaziyyat fakültələrində qiyabi təhsil alan 257 müəllim təhsillərini davam etdirmək üçün Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun müvafiq fakültələrinə qəbul edilsinlər. Ermənistandan köçürülən İrəvan Azərbaycan Pedaqoji Məktəbi müstəqil təhsil müəssisəsi kimi əyani şöbəsinin 232 şagirdi və qiyabi şöbəsinin 108 şagirdi pedaqoji kontingentlə birlikdə Xanlar (Göygöl) şəhərinə köçürülsün və pedaqoji məktəb Xanlar şəhərindəki uşaq evində yerləşdirilsin [12, s.193-194].

İrəvan Azərbaycan Pedaqoji Məktəbində işləyən 18 müəllimin ailəsi (83 nəfər) Xanlar şəhərinə (indiki Göygöl şəhəri) deportasiya edilmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev 13 dekabr 1948-ci ildə SSRİ Nazirlər Soveti sədrinin müavini V.Malenkova ünvanlandığı SSRİ Nazirlər Sovetinin 27 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarlarının yerinə yetirilməsinin vəziyyəti haqqında hesabat xarakterli məktubunda Kür-Araz ovalığına köçürülən əhali üçün bütün zəruri şəraitin olmadığı - yaşayış üçün mənzillərin olmaması, torpağın yararlı hala salınmaması, su təchizatının həll edilməməsi, sanitar-profilaktik müəssisələrinin olmaması vurğulanırdı. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR-dən azərbaycanlıların köçürülmə planında dəyişiklik edilərək bu rəqəmin 1949-cu ildə 12000-15000 nəfərdən artıq

nəzərdə tutulmaması, Ermənistanın dağlıq rayonlarından köçürülənlərin Azərbaycanın dağlıq rayonlarında yerləşdirilməsinə icazə verilməsi SSRİ Nazirlər Sovetindən xahiş edilir və həmin şəxslərə də SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli güzəştlərin şamil edilməsinin məqsədəmüvafiq olması qeyd edilirdi [6, v. 71-74].

Lakin SSRİ Nazirlər Soveti dəfələrlə edilən bu cür müraciətlərə bir qayda olaraq cavab verirdi ki, təsdiq edilmiş köçürmə qrafikindən kənara çıxmaq olmaz.

SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə şans vermişdi ki, İrəvan ətrafında və Ermənistanın sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələrini köçürmək yolu ilə birdəfəlik xəritədən silə bilsin. Ermənistan hökumətinin nümayəndələri azərbaycanlı əhalinin psixoloji cəhətdən köçürülməyə hazırlanması üçün müxtəlif şayiələr yayırdılar. Ermənistan SSR-in daxili işlər naziri general-mayor Xoren Qriqoryanın imzası ilə 3 may 1948-ci ildə Mir Cəfər Bağırova ünvanlanmış "Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar Ermənistanın azərbaycanlı əhalisi arasındakı əhval-ruhiyyə haqqında arayış"da təkcə köçürülməsi nəzərdə tutulan rayonların azərbaycanlı əhalinin deyil, bu işdə marağı olan, Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsini arzulayan ermənilərin söylədikləri də öz əksini tapmışdır. Azərbaycanlı əhalinin dədə-baba yer-yurdlarından köçmək istəmədiklərini söyləmələri təbii idi. Ermənilərin Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiası ilə bağlı söylədikələrinə arayışda yer verilməsi isə dolayısı ilə rəsmi İrəvanın mövqeyini ifadə edirdi. Məsələn, İrəvanda Sosial Təminat Nazirliyi sistemində işləyən bir ermənin söylədiyi aşağıdakı fikirlər arayışda öz əksini tapmışdır: "Azərbaycanlıların Ermənistandan köçürülməsi şübhə doğurmur. İlk növbədə, Araz və Axuryan (Arpaçay) çaylarının sahilləri boyu yaşayan azərbaycanlılar köçürüləcək, sonra Yerevandakı azərbaycanlıların köçürülməsinə başlanacaq. Sərhəd rayonlarının kəndləri də azərbaycanlılardan təmizlənəcək..." Başqa bir erməni isə öz arzularını belə ifadə edirdi: "Azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən köçürmək və Naxçıvanı Ermənistan ərazisinə birləşdirmək lazımdır" [9, v. 21].

Arxiv sənədlərində İrəvan şəhərindən azərbaycanlıların deportasiyasına dair faktlar öz əksini tapmışdır. 1948-ci ildə İrəvan şəhərinin Stalin, Kirov, Molotov və Spandaryan rayonlarında yaşayan 437 ailə (1886 nəfər) Azərbaycana köçürülmüşdü [12, s. 245]. 1949-cu ildə isə İrəvan şəhərinin Beriya rayonundan 8 ailə (39 nəfər) Azərbaycana köçürülmüşdü [12, s. 376]. 1950-ci ildə İrəvan şəhərinin Stalin, Kirov, Spandaryan,və Mikoyan rayonlarından 43 ailə (181 nəfər) Azərbaycana köçürülmüşdü [12, s. 490-491]. 1951-ci ildə isə İrəvan şəhərindən daha 9 ailə (42 nəfər) Azərbaycana deportasiya edilmişdi [12, s. 588]. 1952-ci ildə İrəvan şəhərindən 22 ailə (73 nəfər) deportasiya edilmişdi [12, s. 635]. 1953-ci ildə də İrəvan şəhərindən 22 ailə (73 nəfər) deportasiya edilmişdi [12, s. 681].

Ümumiyyətlə, 1948-1953-cü illərdə İrəvan şəhərindən 541 ailə (2294 nəfər) Azərbaycana deportasiya edilmişdi [15, 99].

İrəvan şəhərindən deportasiya edilən azərbaycanlılar Bakının əsasən Maştağa və Əzizbəyov rayonlarında, Kirovabad (Gəncə) və Əli Bayramlı (Şirvan) şəhərində, Sabirabad, Xanlar (Göygöl), Şamxor (Şəmkir), Quba, Jdanov (Beyləqan), Dəstəfur (Daşkəsən), Yevlax, Sabirabad, Saatlı və Salyan rayonlarında məskunlaşdırılmışdı.

İrəvan şəhərindən köçürülən azərbaycanlı əhalinin bir qismi Azərbaycanın aran rayonlarında iqlim şəraitinə uyğunlaşmadıqlarına görə və o dövrdə yayılmış yoluxucu xəstəliklərə düçar olaraq tələf olmuşdular.

Köçürülənlər üçün yeni mənzillər tikilib istifadəyə verilmədiyindən onlar əsasən ictimai binalarda, yararsız tikililərdə, anbarlarda, tövlələrdə, yerli əhalini sıxışdırmaq yolu ilə onların mənzillərində yerləşdirilmişdi.

1953-cü ildə İ.Stalinin ölümündən sonra azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyasına son qoyulmuş və yaşayış şəraiti ağır olan əhalinin az bir qismi Ermənistanın kəndlərindəki boş qalan evlərinə qayıda bilmişdilər. İrəvan şəhərindən köçürülən azərbaycanlıların evlərində xaricdən gələn ermənilər məskunlaşdığı üçün onların heç biri geri qayıda bilməmişdi.

Ermənistandan azərbaycanlıların deportasiyası başa çatdırıldıqdan sonra digər bir prosesə start verildi. Ermənistanda yaşayan əhalinin azalmasını bəhanə edərək respublika və rayon miqyasında müəyyən vəzifələr tutan azərbaycanlı kadrların ermənilərlə əvəz edilməsi aksiyası həyata keçirildi. İlk növbədə bu proses paytaxt İrəvandan başlandı. Ermənistan KP MK-nın məsul işçiləri Məmməd İsgən-

dərov və Cümşüd Sultanov, kənd təsərrüfatı şöbəsi müdirinin müavini Rəhim Allahverdiyev, kənd təsərrüfatı nazirinin müavini Hüseyn Məmmədov vəzifələrindən azad edildilər. Ermənistan SSR Ali Soveti sədrinin müavini Mirzə Bəşirov Ali Sovetin 9 aprel 1949-cu il tarixli sessiyasının qərarı ilə tutduğu vəzifədən azad edildi. Onların bəzilərini ali partiya təhsili almaq üçün Bakıya göndərdilər ki, bir daha geri qayıtmaq şansları olmasın [14, s.167].

Cəfər Cabbarlının adını daşıyan İrəvan Dövlət Azərbaycan Dram Teatrı da azərbaycanlıların deportasiyası haqqında qərarlardan öz payını aldı. Deportasiya illərinin hər cür təzyiq və sıxıntılarına baxmayaraq, teatr 1948-1949-cu illərdə "Məşədi İbad", "Leyli və Məcnun", "Eşq və İntiqam", "Şah İsmayıl" kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq, 1949-cu ildə teatr azərbaycanlıların yaşamadığı Basarkeçər rayonunun mərkəzinə köçürülmüş, 1952-ci ildə isə maliyyələşdirilməməsi səbəbindən bağlanmışdı. Teatrın istedadlı kollektivinin üzvləri Bakı və Gəncə teatrlarında özlərinə yeni iş yerləri tapmaq məcburiyyətində qalmışdılar. İrəvan teatrı düz 15 ildən sonra - yəni 1967-ci ildə yenidən İrəvanda fəaliyyətini bərpa etmişdi [14, s.167].

Təbii ki, İrəvan şəhərində azərbaycanlı ali məktəb və texnikum müəllimlərinin öz ailələri ilə birlikdə şəhəri tərk etmək məcburiyyətində qalması ümüumtəhsil prosesində ciddi problemlər yaratmışdı. Bir çox azərbaycanlı ailələri öz övladlarına normal təhsil vermək üçün Azərbaycanın ayrı-ayrı rayonlarına köçmək məcburiuyyətində qalmışdı.

1948-53-cü illər deportasiyası nəticəsində İrəvan şəhərinin azərbaycanlı əhalisi yarıbayarı azalmışdı. Bunu 1939-cu ildə keçirilən siyahıyaalma zamanı İrəvan şəhərində 6569 nəfər azərbaycanlının qeydə alınması müqabilində, 1959-cu ildə 3413 nəfər azərbaycanlının qeydə alınması əyani göstərir. (1949-cu ildə siyahıyaalma keçirilməməşdir) [15, s.101].

Nəticə. Araşdırmalar göstərir ki, azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarında Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi (*əsində, deportasiyası*) nəzərdə tutulmuşdusa da, adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları zorakı üsullarla həyata keçirilmiş, 24 rayondakı 200-dən artıq yaşayış məntəqəsindən və İrəvan şəhərindən təqribən 100 min nəfər azərbaycanlı deportasiya edilmişdir [15, 101].

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar o dövr Ermənistan mətbuatı, o cümlədən "Sovet Ermənistanı" qəzeti heç bir iz buraxmamışdır. 1948-1953-cü illərdə "Sovet Ermənistanı" qəzetinin səhifələrində yalnız onu müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, müsəlman kəndləri erməni kəndlərinə çevrilir.

İrəvan şəhərindən azərbaycanlıların 1948-1953-cü illər deportasiyası Sovet Ermənistanının rəhbərlərinin azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətinin növbəti mərhələsi idi.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası son 220 ildə soydaşlarımızın başlarına gətirilən faciələr silsiləsinin bir həlqəsidir. Etnik təmizləmə məqsədini güdən bu aksiya həm də administrativ xarakter daşıdığı üçün siyasi repressiya aktı kimi xarakterizə edilməlidir. Qərarda "könüllü köçürülmə" ifadəsi yazılsa da, əslində min illər boyu həmin ərazidə yaşayan əhalinin yer-yurdlarından sürgün edilməsi demək idi.

1989-cu ildə SSRİ hökuməti 1940-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi.

Prezident Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" imzaladığı fərman xalqımıza qarşı siyasi qərarla həyata keçirilən bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması məqsədini daşıyır.

Tədqiqatçılardan Ataxan Paşayev, Bəxtiyar Nəcəfov, Lətifə Həsənova, İlqar Niftəliyev, Əsəd Qurbanlı azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasının səbəblərini, faciənin miqyasını və onun nəticələrini xronoloji çərçivədə araşdırmışlar. Azərbaycanlıların tarixi-etnik torpaqlarından 1948-1953-cü illər deportasiyası haqqında qəbul edilən sənədlərin toplusu çap edilmişdir [12].

Çox təəssüf ki, beynəlxalq ictimaiyyət hələ də Azərbaycan xalqının başına gətirilən bu faciənin

miqyasından xəbərsizdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Sovet hakimiyyəti illərində repressiyaya məruz qalan xalqlar haqqında son dövrlərdə Rusiyada çoxlu tədqiqat əsərləri yazılmışdır. Lakin azərbaycanlıların Ermənistandan 1948-1953-cü illər deportasiyası faktı hələ də xarici tədqiqatçıların əsərlərində özünə yer tapmamışdır.

ƏDƏBIYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond 411, siy. 33, iş 112.
2. ARDA, fond 1984, siy. 1, iş 85.
3. ARDA, fond 411, siy. 26, iş 34.
4. ARDA, fond 411, siy. 28, iş 678.
5. ARDA, fond 411, siy. 9, iş 601.
6. ARDA, fond 411, siy. 9, iş 734.
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), fond 1, siy. 169, iş 249.
8. ARPİİSSA, fond 1, siy. 169, iş 249.
9. ARPİİSSA, fond 1, siy. 221, iş 1.
10. ARPİİSSA, fond 1, siy. 222, iş 48.
11. ARPİİSSA, fond 1, siy. 33, iş 27.
12. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Sənədlər toplusu. Bakı, 2013.
13. Həsənli. C. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, 2005.
14. Mustafa N., Qurbanov A., Əlili E. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, 2018.
15. Mustafa Nazim. İrəvan şəhəri. Bakı, 2020.
16. Армения и Советско-Турецкие отношения в дипломатических документах 1945-1946 гг. Под редакцией Армана Киракосяна. Ереван, 2010.
17. Геворгян Паргев. В борьбе за существование. “Армянский вестник” qəzeti, Moskva, sentyabr, 1993.
18. История армянского народа: С древнейших времён до наших дней. Ереванский Университет, 1980.
19. Новичев А. Турция. Краткая история. Москва, 1965.
20. “Ноев Ковчег” qəzeti, № 3, (138), март, Moskva, 2009,
21. “Отечественные Архивы» jurnalı , № 3, Moskva, 1995.

НАЗИМ МУСТАФА
Доктор философии по историческим наукам,
Институт Истории и Этнологии имени А.А.Бакиханова НАНА

ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ ИРЕВАНА В 1948-1953 ГОДАХ

В данной статье рассматривается массовая депортация азербайджанцев из города Иревана в 1948–1953 годах. В 1905–1906 и 1918–1920 годах армяне совершили массовые погромы и геноциды против азербайджанцев, а после Второй мировой войны при содействии центральных Советских властей азербайджанцы были депортированы со своих исторических земель. Параллельно с этим армяне переселялись из-за рубежа и селились в домах депортированных азербайджанцев. Анализ показывает, что в результате депортаций 1948–1953 годов азербайджанское население города Иревана сократилось вдвое. Кроме того, в 1948–1953 годах из своей исторической родины, Западного Азербайджана, было депортировано около 100 тысяч азербайджанцев.

Ключевые слова: Армения, Западный Азербайджан, азербайджанцы, Иреван, Баку, Гянджа, депортация.

NAZIM MUSTAFA
PhD on History,
Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS

DEPORTATION OF AZERBAIJANIS FROM IREVAN IN 1948-1953

This article examines the mass deportation of Azerbaijanis from the city of Ierevan in 1948-1953. Armenians committed mass massacres and genocides against Azerbaijanis in 1905-1906 and 1918-1920, and after World War II, with the help of the central Soviet authorities, Azerbaijanis were deported from their historical and ethnic lands. In parallel, Armenians were resettled from abroad and settled in the homes of deported Azerbaijanis. Analyses show that as a result of the deportations of 1948-1953, the Azerbaijani population of the city of Ierevan decreased by half. Also, in total, about 100 thousand Azerbaijanis were deported from their historical homeland, Western Azerbaijan, in 1948-1953.

Keywords: Armenia, Western Azerbaijan, Azerbaijanis, Irevan, Baku, Ganja, deportation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Cəbi Bəhramov, t.e.d. İbrahim Zeynalov.